# **FİLMOQRAFİYA**



## ***Aşıq Ələsgər (film, 1972)***

Aşıq Ələsgər qısametrajlı sənədli filmi rejissor Xamiz Muradov tərəfindən 1972-ci ildə çəkilmişdir. Film "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Kinolent görkəmli saz və söz ustası Aşıq Ələsgərin anadan olmasının 150 illiyinə həsr edilmişdir. Kinolent görkəmli saz və söz ustası Aşıq Ələsgərin anadan olmasının 150 illiyinə həsr edilmişdir. Film bütöv xarakterə malik, barışmaz, kökləri xalqa möhkəm bağlı, vətənini qızğın məhəbbətlə sevən, öz qoşmaları və telli sazı ilə onu tərənnüm edən el aşığı Ələsgərə həsr olunmuşdur. Filmdə doğma təbiətdə aşıq Ələsgərin poeziyası bir-birini tamamlayır. Müəlliflər sənətkarın zəngin yaradıcılığına müraciət etmişlər. Onlar burada eyni zamanda söz sənətindən, yaradıcılıq və sənətkarlıq məsələlərindən danışmış, folklor ədəbiyyatı tariximizi vərəqləmiş, "Dədə Qorqud" dan başlayaraq, bugünkü aşıq yaradıcılığına qədər olan dövrdən bəhs etmişlər.

***Filmin üzərində işləyənlər:***

Ssenari müəllifi: ***İlyas Tapdıq***
Rejissor: Xamiz Muradov
Operator**:** Fəraməz Məmmədov

## ***Bakı SOS Uşaq Kəndi (film, 2001)***

Film Bakı yaxınlığında "SOS" şirkəti tərəfindən kimsəsiz uşaqlar üçün yaradılmış uşaq kəndi haqqında bəhs edir.

***Film üzərində işləyənlər:***

Ssenari müəllifi: **İlyas Tapdıq**
Rejissor: Vaqif Behbudov
Operator: Mətləb Yaqubov
Səs rejissoru: Firudin Bağıroğlu
Montaj: Azər Abbasov
Rejissor assistenti: Mikayıl Nəsirov, Vasif Məmmədzadə
Operator assistenti: Ziya Babayev
Redaktor: Camal Yusifzadə
Direktor: Məhyəddin Əsgərov

## *Baş tutmayan ziyafət (film, 1981)*

Filmdə  zay məhsul hazırlayan zavodlar tənqid olunur. Film haqqında “Mozalan” satirik jurnalının 62 nömrəsində məlumat verilmişdir.

***Film üzərində işləyənlər:***
Müəllif : ***İlyas Tapdıq***
Rejissor : Ceyhun Mirzəyev
Operator : Valeri Kərimov
Səs operatoru : Əsəd Əsədov
Baş redaktor : Eyvaz Borçalı
Mətni oxuyan : Şahmar Ələkbərov (titrlərdə yoxdur)
Musiqisindən istifadə edilən bəstəkar : Xəyyam Mirzəzadə ("Bir ailəlik bağ evi (film, 1978)" bədii filmindən) (titrlərdə yoxdur)




## *"Fransız" (film, 1995)*

**"Fransız" 1995-ci ildə istehsal olunmuş Azərbaycan filmi.**

Film Əmir Pəhləvanın "Əhlikeyf " povestinin motivləri əsasında çəkilib. Böyük ictimai problemlərə həsr olunmuş film forma etibarilə bəzi yeniliklərlə yadda qalıb.

Film Avropadan qayıdandan sonra öz milli adət-ənənələrimizə yuxarıdan aşağı baxan həmvətənlərimiz haqqındadır. Əlibala (mərhum aktyor Fərman Şəkili) azərbaycanlı olduğunu danır, fransızca danışmağa başlayır. Onu yola gətirmək üçün hər üsula əl atırlar, amma bir xeyri olmur. Sonradan məlum olur ki, Əlibala hələ sünnət olunmayıb. Məcburi sünnət elədikdən sonra Əlibala çevrilib olur müsəlman, azərbaycanlı.

Filmdə aktyor qismində iştirak edən məşhurlardan biri də tanınmış şair ***İlyas Tapdıqdır.*** Şair elə filmdə də şair rolunu canlandırır. Qeyd etdiyimiz kimi, milliliyini, dilini danan Əlibalanı yola gətirməkdən ötrü hər vasitəyə əl atılır. Gah deputat gəlir, gah meyxanaçı, gah ifaçı. Hamısının da tənbeh hədəfi məhz "Fransız Əlibala"dır.

İlyas Tapdıq da şair kimi obyektə gələrək dilini, özünü unudub hamıdan qaçıb çardaqda gizlənən Əlibalaya məsləhət verir. Şeir deyəndən sonra isə saz çalmağa başlayır.

Bu epizodun maraqlı tarixçəsi var. Bu barədə şairin özü danışır: "Mənim filmlərdə fəaliyyətim az olmayıb. Bir çox sənədli filmlərin çəkilişində iştirak etmişəm. Bir çoxunun ssenari müəllifi elə özüm olmuşam. Demək istəyirəm ki, kino mənə uzaq bir sahə deyil. "Fransız" filmində isə aktyor kimi çıxış etdim. Çox adam elə bilir ki, bu filmdə saz çalmağım üzə çıxıb. Amma mən uşaqlıqdan saz çalmışam. Məni filmə dəvət edəndə heç bilmirdilər ki, saz çalmaq qabiliyyətim də var. Mən orada bir aktyor kimi sazı sadəcə əlimdə saxlamalı idim. Bilmədən başladım çalmağa. Gözəl bəstəkarımız Xəyyam Mirzəzadə də orada idi. Dedi ki, "sənin nə gözəl saz çalmağın var! Hansı havadı bu?" Dedim ki, "Qaraçı" havasıdı.

Dedi ki, "elə filmdə də çalıb-oxuya bilərsən?" Dedim, "hə, niyə çalmıram ki!" Uşaq vaxtı bəzi havaları aşıqlardan eşitmişdim, onlardan öyrənmişdim. Elə yadımda qalanı da oxudum".

***Film üzərində işləyənlər:***

Ssenari müəllifi : Əmir Pəhləvan, Vaqif Mustafayev
Quruluşçu rejissor : Vaqif Mustafayev
Quruluşçu operator : Rafiq Quliyev
Quruluşçu rəssam : Hüseyn Haqverdiyev, Elxan Muradov
Bəstəkar : Xəyyam Mirzəzadə
Səs rejissoru : Teymur Abdullayev
Musiqi redaktoru : Riyad Quliyev
Məsləhətçi : Novruz Məmmədov
Filmin direktoru : Pərviz Quliyev
Redaktor : Əhməd Aşurbəyov, Əhmədağa Qurbanov




## *Ordan-burdan (film, 1987)*

Film-tamaşa o vaxtkı Sovet pulu ilə 8972 rubla və çox böyük əziyyətlər hesabına başa gəlib. Məbləğ isə kollektivə gəlib çatıncaya qədər yarıbayarı azalmışdı. Rejissor məcbur olub sədrə müraciət etdikdən sonar kəsilən vasait kollektivə qaytarılıb. Azərbaycan televiziyasının tarixində ilk dəfə iştirakçılardan ötrü 40-a yaxın kostyum tikdirilmişdi. Çəkilişlər düz 13 pavilyonda aparılmışdı. Rəssam Rafael Əsədov 13 dəfə dekorları dəyişdirmişdi. Söhbət bir az "O, olmasın bu olsun", "Arşın mal alan"ı, bir az da "Uzuncorab Meri Poppins" bədii filmini xatırladan məşhur "Ordan burdan" muziklından gedir.

***Televiziya tamaşasının üzərində işləyənlər:***

Ssenari müəllifləri: Zəminə Hacıyeva, Fuad Hacıyev
Quruluşçu rejissor: Ramiz Həsənoğlu
Quruluşçu operator: Eldar Məmmədov
Bəstəkar: Rauf Hacıyev
Musiqi rəhbəri: Cavanşir Cəfərov
Rəqslərin quruluşu: Vitali Axundov, German Utkin
Şeirlərin müəllifi: ***İlyas Tapdıq***
Konsertmeyster: R.Astvasaturov
Vokalçılar: Z.Quliyeva, A.Əliyeva, Elxan Əhədzadə




## *Yoxlama (film, 2006)*

Habil (Əjdər Həmidov) sadə adamdır. Vergilər Nazirliyində işləyir. Lakin dostu Rokun öldürülməsindən sonra onun həyatı tamamilə dəyişir, dostunun başa çatdıra bilmədiyi tədqiqat işini bitirməyə söz verir. Lakin onun seçdiyi bu yol çox təhlükəli və amansızdır**.** 2006-cı il IX Avrasiya Teleforumun əsas mükafatına - Qran-Priyə layiq görülmüşdür. Filmin rejissoru Vaqif Mustafayevə Xüsusi Mükafat verilmişdir. Film 8 seriyadan ibarətdir. Filmdəki trüklərin əksəriyyətini aktyor Əjdər Həmidov özü həyata keçirmişdir.

***Film üzərində işləyənlər (titrlərdəki sıraya görə):***

Baş məsləhətçi: Fazil Məmmədov (Azərbaycan Respublikası Vergilər Naziri, I dərəcəli dövlət vergi xidməti müşaviri)
Quruluşçu rəssam: Ağarəhim Əliyev, Vyaçeslav Vidanov
Montaj edən: Etibar Həsənov
Səs rejissoru: İqor Muqanov
Səs operatoru: Vidadi Samanduyev
Bəstəkar: Yevgeni Doqa
Quruluşçu operator: Aleksey Koluzov, Valentin Piqanov
Ssenari müəllifi: Vaqif Mustafayev, Aleksandr Polozov
İcraçı prodüser: Aslan Məmmədhəsənov
Quruluşçu rejissor: Vaqif Mustafayev
Səs mühəndisi: Roman Məmmədov
Rejissor: Zilli Namazov, Adil İsmayılov, Ataş Davudov
Operator: Rafiq İsmayılzadə, Zaza Tsomaya
Dekor rəsamı: Rövşən Mehdiyev, Kamal Qarayev, Elyaz Səfərov
Rənglərin korreksiyaçısı: Viktor Şaprinski
Kaskadyor qrupunun rəhbəri: Vyaçeslav Uşanov
Redaktor: Elnur Məmmədov (II), ***İlyas Tapdıq***
Mətni oxuyan: Rafiq Əliyev (II)

## *Mozalan kinojurnalının süjetlərinin siyahısı*




Kinojurnal 1970-ci ildə təsis edilmişdir. İndiyə qədər 180-dən çox nömrə istehsal etmişdir. Hər nömrədə isə 3-4 süjet vardır. Bunlar bədii, sənədli və hətta cizgi süjetləridir. Kinojurnal "Azərbaycan-film" kinostudiyasının nəzdində yaradılmışdır. Məqsəd ölkədəki neqativ hallara qarşı mübarizə aparmaq, satira diliylə xalqa çatdırmaq və dərs verməkdir. Anidən müxtəlif istehsalat obyektlərində peyda olmaq, oradakı əyri-əskikləri lentə almaq, bütün respublikanı xəbərdar etmək mozalançıların əsas iş üsullarından idi. Vaxtında bir çoxunun qorxulu röyasına çevrilən "Mozalan" 2007-ci ildən fəaliyyətinə qaldığı yerdən davam edir.

Kinojurnalın hazırkı baş redaktoru yazıçı-ssenarist Orxan Fikrətoğludur. İlyas Tapdığın üzərində işlədiyi aşağıdakı filmlər “ Mozalan” satirik jurnalında qeyd olunmuşdur.

*Evlər yıxanım mənim!!. (film, 1974) (Qısametrajlı sənədli süjet - Mozalan №16)*
*Xoruzun quyruğu (film, 1980) (Qısametrajlı sənədli süjet - Mozalan №60)*
*İki xalqın oğlu (film, 2004)*
*Keyfiyyət nişanı (film, 1974) (Qısametrajlı sənədli süjet - Mozalan №20)*
*Mədəniyyət salnaməsi (film, 2001-2004)*
*Məhəbbətdən də artıq (film, 1975) (Qısametrajlı bədii süjet - Mozalan №25)*
*Molla İbrahimxəlil kimyagərin nəvələri (film, 1974) (Qısametrajlı sənədli süjet - Mozalan №18)*
*Sürpriz (film, 1977) (Qısametrajlı bədii-sənədli süjet - Mozalan №38)*
*Şərt (film, 1984) (Qısametrajlı bədii süjet - Mozalan №87)*
*Toxunma, partlayar! (film, 1982) (Qısametrajlı sənədli süjet - Mozalan №69)*
*Yollar (film, 1972) (Qısametrajlı sənədli süjet — Mozalan №6)*